Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 09 (1714) 16 noyabr 2020 - ci il Qiymәti 50 qәpik

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

**Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.**

Prezident İlham Əliyevin müraciəti
-Əziz həmvətənlər.

Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar. İstərdim ki, bəyanatın mətni ilə sizi tanış edim:

**"Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı**

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.
2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.
3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.
4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.
5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.
6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan



arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.
8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.
9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti"

## BU SAYIMIZDA



**Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər** 2

**Rektor tarixi qələbə münasibətilə ATU-nun kollektivini təbrik edib** 2



**Bu il də rekord sayda Prezident təqaüdçüsü ATU-nu seçdi** 3

# Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər



**◆ Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər.**

Dövlətimizin başçısı görüşdə çıxış edib:

- Əziz hərbçilər, Vətən müharibəsi başa çatdı. Azərbaycan bu müharibədə parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu, işğalçıları torpaqlarımızdan qovmuşuq. Mən gəlmişəm ki, bu parlaq qələbə münasibətilə sizi şəxsən təbrik edim, sizə öz təşəkkürümü bildirim, Azərbaycan xalqının təşəkkürünü bildirim ki, siz qəhrəmancasına döyüşərək, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərmisiniz, yaralanmısınız, öz həyatınızı risk altına atmısınız, böyük şücaət göstərmisiniz...

...Ona görə bu gün, müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim. Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

# Rektor tarixi qələbə münasibətilə ATU-nun kollektivini təbrik edib

**Hörmətli Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti, tələbələr, həkimlər, əziz dostlar!**

Bu gün çox sevincli gündür! Nəhayət, 30 illik həsrətdən sonra arzularımız çin oldu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlayan Vətən müharibəsi şanlı qələbə ilə başa çatdı. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində bizim ərazilərdə qurduqları istehkamları darmadağın edərək, cəsarətlə irəlilədi, mənfur düşmənin zəbt etdiyi torpaqları qarış-qarış qaytardı.

Uzun illər düşmən tapdağı altında qalan torpaqlarımızın hamısının, hər bir kəndimizin, hər bir yaşayış məntəqəmizin üzərində tezliklə, çox tezliklə Azərbaycan bayrağı dalğalanacaq!

Azərbaycan Ordusu və xalqımız məhz Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə bu zəfərə imza ata bildi. Yaşasın Ali Baş Komandan! Eşq olsun Azərbaycan Ordusuna! Bu qələbə uğrunda canını qoyan şəhidlərimizin ruhu qarşısında baş əyir, Allahdan onlara rəhmət, yaralanan əsgərlərimizə isə şəfa diləyirəm!

Ölkə prezidenti cənab İlham Əliyevin də dediyi kimi: "Bu, bizim tarixi qələbəmizdir! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"



# Professor Vaqif Şadlinski "Fəxri Fərman"la təltif edilib

**Bu günlərdə görkəmli alim, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru, Rusiya Tibb Elmləri Akademiyasının və Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, "Şöhrət" ordenli professor Vaqif Bilas oğlu Şadlinski səhiyyə sahəsində uzun müddət səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin "Fəxri Fərman"ı ilə təltif edilib. Bu münasibətlə professor Vaqif Şadlinskini təbrik edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli uzun illər ərzində ölkəmizin tibb təhsilinin inkişafında, eləcə də ali təhsilli peşəkar tibbi kadrların hazırlanması istiqamətində onun böyük işlər gördüyünü diqqətə çatdırıb.**



İnsan anatomiyası və tibbi terminologiya kafedrasının nəinki ölkəmizdə, eləcə də digər xarici ölkələrdə də ən nüfuzlu kafedra kimi tanındığını vurğulayan rektor bildirib ki, kafedranın nəzdindəki nadir eksponatlarla zəngin Anatomiya muzeyini dünyanın ən məşhur muzeyləri ilə müqayisə etmək mümkündür.

Rektor daha sonra Səhiyyə naziri, cənab Oqtay Şirəliyevin təbrikini çatdırıb və bu yüksək mükafatı ona təqdim edərək şərəfli bir ömür yolu keçən Vaqif müəllimə möhkəm cansağlığı, bundan sonra da gələcək elmi- pedaqoji fəaliyyətində uğurlar arzulayıb.

Təbrikə və ünvanına deyilən xoş sözlərə görə ATU-nun rektoru, professor G.Gəraybəyliyə təşəkkürünü bildirən professor V.Şadlinski Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Fəxri Fərman"ı ilə təltif olunmasından fərəh hissi keçirdiyini söyləyib və bu mükafatı Səhiyyə naziri, cənab Oqtay Şirəliyev tərəfindən onun fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirib.

*ATU-nun mətbuat xidməti*

# Səhiyyə Nazirliyinin baş infeksionisti əhaliyə müraciət edib



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan açıqlamada deyilir: “Hazırda kəskin respirator virus infeksiyaların mövsümü artımı dövründəyik. Yeni koronavirus və digər respirator virus infeksiyalarının klinik əlamətləri o qədər oxşardır ki, bunları ayırd etmək çox çətindir və bəzən isə xüsusi laborator müayinələrsiz mümkün deyil. Buna görə bir daha vətəndaşlarımıza tövsiyə olunur ki, özlərində hərarət, ümumi zəiflik, kataral əlamətlər hiss etdikdə evdə qalmalı, özünü təcrid edərək telefonla sahə həkiminə müraciət etsinlər. Yalnız müvafiq həkim-mütəxəssis sizi müayinə edərək düzgün qərar verə bilər. Yeni koronavirus infeksiyası təsdiqlənmiş və ya güman edilən hallarda özünümüalicə ilə məşğul olmaq çox təhlükəlidir.

Təcrübə göstərir ki, xəstəxanalara ağır vəziyyətdə daxil olan xəstələrin böyük əksəriyyəti evdə qeyri həkim-mütəxəssislər, tibb bacıları, hətta bəzi hallarda ümumiyyətlə tibb təhsili olmayan şəxslər tərəfindən müalicə olunurlar. Həmin xəstələrin ağırlığının düzgün qiymətləndirilməməsi, müalicənin qüsurlu olması, vaxtında xəstəxanaya yerləşdirilməməsi ağır, bəzi hallarda ölümcül fəsadların inkişafına yol açır.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, evdə müalicəsinə icazə verilən yüngül xəstələrə müxtəlif antibiotik və hormonal dərmanların istifadəsi yolverilməzdir. Antibiotik preparatların virusa heç bir təsiri yoxdur, əksinə bədəndə olan faydalı mikroorqanizmləri məhv etməklə və immun sistemi zəiflətməklə zərər vurur, eyni zamanda hormonal preparatlar bu halda xəstəliyin əlamətlərini təhrif edərək xəstədə aldadıcı yaxşılaşma təəssüratı yaradır və ağırlaşmalar baş verərsə çox gec aşkarlanır və gecikmiş hospitalizasiyanın nəticəsi bir çox hallarda faciəvi olur. Bir daha təkidlə tövsiyə edirik ki, həyatınızı riskə atmayın, özünüzü narahat hiss etdikdə gecikmədən yaşayış yeri üzrə poliklinikaya müraciət edin, sağlamlığınızı yalnız müvafiq ixtisaslı peşəkar həkimlərə etibar edin”.

# COVID-19-a ailəliklə yoluxanlar var

**◆ Son bir həftə ərzində ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma sayı hər gün artaraq çox yüksək həddə çatıb. Bunun başlıca səbəbi bəzi vətəndaşların pandemiya dövrünün qaydalarına əməl etməməsi və sosial məsuliyyət hissini itirməsidir.**



Mövcud vəziyyəti şərh edən Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev deyib: “Koronavirusun ölkəmizdə təzə yayılmağa başladığı mart-aprel aylarında yoluxmaya məruz qalan müəyyən ailədən bir nəfər gəlib xəstəxana şəraitində müalicə olunandan sonra sağalaraq evə qayıdırdı. Həm də o vaxt yoluxanların xeyli bir qismi bu xəstəliyi nisbətən yüngül keçirirdi və bu, əhali arasında bir qədər arxayınçılıq hissinin yaranmasına səbəb oldu. İndi isə infeksiyaya yoluxan bütöv ailələr var. Hazırda xəstəxanada müalicə olunan baba, nənə, oğul, gəlin və nəvə, yaxud ata-ana və övladlarından ibarət bütöv ailələr müalicə olunurlar. Onlar ya ailəvi şəkildə müəyyən tədbirlərdə iştirak edərək xəstələnir və yaxud ailə üzvlərindən kimsə gedib həmin tədbirlərdə yoluxaraq gəlib ailənin digər üzvlərini də xəstələndirir. Bir də onda duyuq düşürlər ki, artıq hərarət yüksəlir, boğazda ağrı, bədəndə tərləmə başlayır, nəfəs darlığı yaranır, mədə-bağırsaq sistemində pozulmalar əmələ gəlir, belə olanda artıq onun özünü və ətrafdakıları qoruması gec olur”.

Professor əhalini indiki kritik şəraitdə ehtiyatla davranmağa, hər addımda pandemiya dövrünün qaydalarına ən ciddi şəkildə əməl etməyə çağırıb. Unutmaq lazım deyil ki, bu dəhşətli bəşəri bəladan qoruyan yeganə bir qüvvə varsa o da hər kəsin özü və onun sosial məsuliyyət hissidir.

# Bu il də rekord sayda Prezident təqaüdçüsü ATU-nu seçdi

**Hər il olduğu kimi 2020/2021-ci tədris ilində də Azərbaycan Tibb Universitetinə daxil olan tələbələr arasında Prezident təqaüdçüləri də var. Fəxrlə qeyd etmək istəyirik ki, Prezident təqaüdçüləri üzrə rekord say yenə də ATU-dadır. Bu il ATU-nun yeni tələbələrindən 24 nəfəri Prezident təqaüdçüsüdür.**



Qeyd edək ki, hər il ATU rəhbərliyi ilə Prezident təqaüdçüləri arasında görüş keçirilir. Lakin bu il ölkədəki sanitar-epidemioloji vəziyyət səbəbindən görüş baş tutmayıb.

Bununla belə, həmin tələbələri sizə təqdim edirik: Elmir İsmayılov, İlyas İlyaslı, Həsənbala Əliyev, Nəzrin Rəfiyeva, Nəzrin Kazımova, Araz İsrafilov, Pərizad Hüseynli, Nəriman Həsənov, Xətai Əzimli, Allahverdi Sayılov, Şəfa Abdullayeva, Əli Quluyev, Aytən Cəfərova, Fərid Hüseynov, Davud Əhmədzadə, Sücahət Quliyeva, Aqil Nəzərov, Məhin Məmmədova, Məhəmməd Qallacov, Ayxan Çələbiyev, Aytac Məmmədova, Oruc Muradov, Vüsal Abdullayev, Nərmin Cabbarlı.

# ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Türkiyə-Azərbaycan Gənclər Forumunda çıxış edib

**Azərbaycan Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə Türkiyə Gənclər Fondu (TÜGVA) ölkəmizdə bir neçə günlük səfərdədir.**





Məqsəd, iki ölkənin gəncləri arasında əməkdaşlığın möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin, Ermənistan silahlı qüvvələrinin təxribat, terror əməllərinin qardaş ölkədən olan gənclərə çatdırılması və ortaq fikir mübadiləsinin aparılmasıdır.

Səfərin ilk günündə – 2 noyabr tarixində TÜGVA-nın idarə heyətinin üzvlərinin Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Dövlət Diaspora Komitəsinin nümayəndələri ilə görüşü baş tutub. Elə həmin gün iki ölkənin gəncləri arasında “I Azərbaycan-Türkiyə Gənclər Forumu” keçirilib.

Görüşdə Azərbaycandan olan müxtəlif gənclər təşkilatlarının nümayəndələri və Türkiyədən olan gənclərdən ibarət nümayəndə heyəti iştirak edib. Tədbirdə Azərbaycan Tibb Universiteti adından Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev çıxış edib.

Bununla yanaşı, qardaş ölkədən bir qrup gənc foruma onlayn formada qatılıb. Forumda gəncləri narahat edən bir çox məsələlər, eləcə də ümummilli maraqlara dayanan mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüşün sonunda Türkiyə və Azərbaycandan olan gənclərin gələcəkdəki əməkdaşlığına, eləcə də Ermənistanın cinayət əməlləri pislənərək, dünya ictimaiyyətinə çatdırılmasına və bu istiqamətdə gənclərin üzərinə düşən öhdəliklərə dair bəyanat qəbul edilib.

Qeyd edək ki, ölkəmizdə səfərdə olan Türkiyə Gənclər Fondunun nümayəndələri növbəti gün Bərdə və Gəncə şəhərlərinə səfər edəcəklər.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycan Tibb Universitetinə Dövlət qayğısı

**Dövlətimizin apardığı ardıcıl islahatlar bütün sahələrdə olduğu kimi elm və təhsildə də özünü göstərir. Son illər ölkə rəhbərinin diqqət və qayğısı nəticəsində Azərbaycan Tibb Universitetinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmiş, respublikamızda ali təhsilli tibbi kadrların yüksək səviyyədə hazırlanması məqsədilə bir sıra tədris klinikaları tikilib istifadəyə verilmişdir.**

Vaxtilə Azərbaycan Tibb Universitetinin klinik fənləri tədris edən bir çox kafedralarının paytaxtımızın müxtəlif rayonlarının ərazisində yerləşməsi səbəbindən tədris prosesinin təşkilinə və nəzəri fənlərin praktik təcrübə ilə daha sıx əlaqələndirilməsinə mənfi təsir göstərirdi.

1998-ci il sentyabrın 28-də ATU- nun 11 mərtəbəli tədris binasının və 2000-ci il iyun ayının 19–da ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə Azərbaycan Tibb Universitetinin 70 illik təntənəli yubiley tədbirində isə böyük akt zalının açılışı olmuşdur. Hər iki mərasimdə ulu öndər Heydər Əliyevin proqram xarakterli geniş tarixi nitqləri toplantı iştirakçıları tərəfindən gurultulu alqışlarla qarşılanmışdır.

2002- ci ildə ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Tibb Universitetinin ilk klinikası olan Stomatoloji, 2006- cı ildə isə ölkə prezidenti cənab İlham Əliyevin yaxından köməkliyi ilə Onkoloji Klinikanın yaradılması haqqında hökumət strukturunda qərar qəbul edildi.

2007-ci ilin 11 sentyabrında çoxprofilli terapevtik klinikaya olan ehtiyacın zəruriliyi nəzərə alınmaqla ölkə rəhbəri cənab İlham Əliyev ATU-nun Tədris Terapevtik Klinikasının yaradılması haqqında sərəncam imzalamışdır.

Az sonra 2007-ci il sentyabrın 18-də Azərbaycan Tibb Universitetinin çoxprofilli Tədris Terapevtik Klinikasının təməli qoyulmuş və 2010-cu il oktyabrın 1-də 14 mərtəbəli bu möhtəşəm klinikanın açılış mərasimi olmuşdur.

2008-ci il martın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Tibb Universitetinin daha bir yeni Tədris Cərrahiyyə Klinikasının yaradılması haqqında sərəncam imzalayır. Çox keçmir ki, 2013-cu il oktyabrın 12-də ümumi ərazisi 45 min kvadratmetr olan bu cərrahiyyönümlü klinika bütün müasir avadanlıqlarla təchiz edilərək ATU-nun müəllim və tələbələrinin ixtiyarına verilir .

Hər iki unikal klinikanın açılış mərasimlərində ölkə başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər.

Beləliklə, yuxarıda qeyd edildiyi kimi müxtəlif ərazilərdə yerləşən kafedraların vahid bir məkanda mərkəzləşdirilməsi Azərbaycan Tibb Universitetinin bu istiqamətdə tədris prosesinin təşkilinin yaxşılaşdırılması və həmçinin elmi-tədqiqat işlərinin aparılması üçün böyük imkanlar yaratmışdır.








Qocaman təhsil müəsisəsi olan Azərbaycan Tibb Universitetinin 90 illiyi tamam olur. Bu əlamətdar gün münasibətilə ölkə başçısı möhtərəm Prezidentimiz İlham Əliyev may ayının 14-də ATU-nun 90 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Səhiyyə Nazirliyinə Təhsil Nazirliyi ilə birlikdə Azərbaycan Tibb Universitetinin 90 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Sərəncamda bildirilir ki, 2020-ci ildə respublikanın ilk ali tibb təhsili ocağının – Azərbaycan Tibb Universitetinin təsis edilməsinin 90 illiyi tamam olur.

Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazasında yaradılmış Azərbaycan Tibb Universiteti ölkəmizin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Azərbaycan səhiyyəsinin inkişafı tarixində xüsusi mövqeyə malik universitet öz fəaliyyətində təhsili, elmi və tibbi daim üzvi şəkildə birləşdirib, ötən illər ərzində təbabətin ən müxtəlif sahələri üçün yüksək bilikli və bacarıqlı kadrların yetişməsində, həmçinin mötəbər elmi mərkəz kimi fundamental tədqiqatların aparılmasında əhəmiyyətli rol oynayıb. Tibb Universitetində beynəlxalq əməkdaşlıq əlaqələrinin davamlı genişləndirilməsi və tibb təhsilinin müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl həyata keçirilən işlər təqdirə layiqdir.





**M.ƏLƏKBƏRLİ**

**9 noyabr Azərbaycanın Üçrəngli Bayrağının yaranması günüdür. 1918-ci ilin noyabrın 9-da qəbul edilmiş bu bayraq bu gün müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət bayrağıdır.**




# Bir kərə yüksələn bayraq bir daha enməz!

28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan edərək Şərqdə ilk demokratik təsisatlara söykənən hüquqi dövlət olduğunu nümayiş etdirdi. Məhəmməd Əmin Rəsulzadə isə istiqlalımızı elan edən Milli Şuranın sədri idi. Həmin il iyunun 21-də dövlət bayrağının təsisi haqqında ilk qərar qüvvəyə minir və qırmızı rəngli bayrağımızda üzərində ağ rəngli aypara və ağ rəngli səkkizguşəli ulduz təsvir olunurdu. Bugünkü dövlət bayrağımız isə 1918-ci ilin noyabrın 9-da cümhuriyyət hökumətinin iclasında qəbul edilmişdir. Üçrəngli milli bayrağımız isə böyük milli ideoloqumuz Əli bəy Hüseynzadənin vaxtilə irəli sürdüyü "Türkçülük, islamçılıq və müasirlik" ideoloji düsturu əsasında hazırlandı. Milli bayrağımız göy, qırmızı, yaşıl və üzərində aypara və səkkizguşəli ulduz şəklində təsdiqləndi. İstiqlalımızın elan olunmasından, tanınmasından tutmuş, dövlət strukturlarının yaranması, milli atributların ərsəyə gəlməsi, xaric ölkələrə gənclərin təhsil almağa göndərilməsi, beynəlxalq konfranslarda ölkəmizi təmsil etməsi, sonralar diasporumuzun qurulması da daxil olmaqla bütün sahələrdə Məhəmməd Əmin Rəsulzadənin bir siyasi lider kimi fəallığı və həlledici təsiri olmuş və bir sıra məsələlərdə hətta prinsipiallığı və qətiyyəti ilə seçilmişdir. Onun fəaliyyət istiqamətlərinə diqqət yetirdikdə sabit və yüksələn xəttin bütün ömrü boyu onu izlədiyi üzə çıxır. Həmişə alovlu, arqumentli çıxışları ilə auditoriyanı ələ alan M.Ə.Rəsulzadə 1918-ci ilin dekabrın 7-də parlamentimizin təntənəli açılışında məşhur çıxışını etmiş və demişdir: "... müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidari-əhrarınəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir".

70 illik ədalətsizlikdən sonra, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet əsarətindən qurtulmağımıza bir il qalmış, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyəti zamanı mövcud olan üçrəngli bayraq Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilib. 1991-ci il oktyabrın 18-də isə müstəqillik haqda Konstitusiya Aktı qəbul olunub və üçrəngli bayrağımız Azərbaycan Respublikasının dövlət bayrağı kimi yenidən dalğalanmağa başlayıb.

Hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı günü kimi qeyd edilir. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 9 noyabr qəbul etdiyi ilk bayraqla bağlıdır. Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam Prezident İlham Əliyev tərəfindən 2007-ci il noyabrın 17-də imzalanıb. İlk Dövlət Bayrağı Günü isə 2010-cu ilin noyabrın 9-da qeyd olunub. Demək olar ki, bütün bölgələrimizdə Dövlət Bayrağı Meydanları inşa olunub.

Artıq erməni işğalında olan torpaqlarımız cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər ordumuzun rəşadəti ilə düşmən tapdağından azad edilib. Bu bayramı biz işğaldan azad olunan yurd yerlərimizdə daha təntənəli şəkildə qeyd edəcəyik.

Bu tarixi qələbəmizdən sonra üçrəngli bayrağımız Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Suqovuşanda, Kəlbəcərdə, Ağdamda, Laçında da vüqarla dalğalanacaq.

Müstəqilliyimiz əbədi olsun, üçrəngli bayrağımız hər bir bölgəmizdə ucalarda dalğalansın!

**Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

# Noyabrın 12-si Ümumdünya Sətəlcəmə qarşı Mübarizə Günüdür

**◆ Noyabrın 12-si Ümumdünya Sətəlcəmə qarşı Mübarizə Günüdür. Bu beynəlxalq gün tibbi təqvimə uşaq sətəlcəminə qarşı Qlobal koalisiyanın təşəbbüsü ilə salınıb.**

Sətəlcəm kəskin infeksiya xəstəliklərinə aid edilir. Orqanizm infeksiyaya ən çox hava-damcı yolu ilə yoluxur. Müxtəlif növ viruslar, bakteriyalar və göbələklər pnevmoniyanın törədiciləri ola bilər. Xəstəliyin əlamətləri onu doğuran səbəblərdən, pasiyentin yaşından və sağlamlıq durumundan asılıdır. Xəstəlik kəskin keçir və ya aldadıcı formada inkişaf edir. Onun ağciyərdə ağırlaşması daha çox yaşlı adamlarda və immuniteti zəif uşaqlarda müşahidə edilir. Ağciyər sətəlcəmi qripəbənzər əlamətlərlə kəskin respirator virus infeksiyaları fonunda inkişaf edir. "Özünümüalicə" zamanı temperaturu aşağı salan preparatlar qəbul edərkən sətəlcəmin yaranma riski və digər ağırlaşmalar artır. Bu, infeksiyanın tənəffüs yolları ilə aşağı yayılmasına və ağciyərlərdə infeksiya mənbələrinin yaranmasına səbəb olur.

Sətəlcəm bütün dünyada yetkinlik yaşına çatmayanlar arasında ölümün başlıca səbəbidir, ilk növbədə, məhz uşaqlar bu xəstəlikdən əziyyət çəkirlər. Hər il bu xəstəlik beş yaşadək 1,1 milyon uşağın həyatına son qoyur. Bu, QİÇS, malyariya və qızılcadan ölənlərin birgə statistik göstəricisindən çoxdur. Sətəlcəm hər yerdə yayılsa da, ondan daha çox Cənubi Asiya və Afrika ölkələrindəki uşaqlar əziyyət çəkirlər.

2009-cu ildə Ümumdünya Səhiyyə Təşkilatı UNICEF-lə birgə "Pnevmoniyanın profilaktikası və xəstəliyə qarşı qlobal fəaliyyət planı"nı elan edib. Həmin planın məqsədi uşaqların müdafiəsi üzrə kombinə edilmiş tədbirlərlə sətəlcəmlə mübarizəni, xəstəliyin profilaktika və müalicəsini fəallaşdırmaqdır. Ümumdünya Sətəlcəmə qarşı Mübarizə




Gününün rəmzi sayılan mavi rəng səmanın, təmizliyin və xəstələnmə hallarının ümumi səylər nəticəsində minimuma endiriləcəyinə bəslənilən ümidin rəngidir.

Azərbaycanda yoluxucu xəstəliklərə qarşı mübarizə dövlət siyasətinin sosialyönümlü prioritet istiqamətlərindən biridir. Ölkə rəhbərliyinin bilavasitə dəstəyi ilə bu sahədə mühüm tədbirlər həyata keçirilib. Belə ki, Nazirlər Kabinetinin təsdiqlədiyi "2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair tədbirlər proqramı" uşaqlar arasında xəstəliyin azaldılmasına yönələn mühüm sənəddir. İndi Avropanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da 11 yoluxucu xəstəlik – qızılca, məxmərək, parotit, difteriya, göyöskürək, tetanus və başqa xəstəliklər əleyhinə planlaşdırılmış şəkildə aparılan peyvəndləşdirmə tədbirləri ölkədə bütün uşaqları əhatə edir. Həmin tədbirlər nəticəsində, həmçinin immunlaşdırma işlərinin daim təkmilləşdirilməsi və immunoprofilaktika sayəsində infeksion xəstəliklərə tutulma hallarının azaldılması istiqamətində sabit dinamika əldə olunub.

# 12 noyabr Konstitusiya günüdür

**Əsrlər boyu böyük mərhələlərdən keçib tarixi müstəqilliyinə qovuşan xalq qarşısında ötən əsrin 90-cı illərində dövlət təsisatlarının yaradılması, hüquqi və demokratik dövlət quruculuğu bütün zərurəti ilə gündəlikdə dururdu.**




Bunu isə xalqın iradəsini ifadə edən Konstitusiya olmadan etmək mümkün deyildi. Məhz bu amili nəzərə alan ümummilli lider Heydər Əliyevin müəllifliyi ilə noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul edildi.

Ötən əsrin 90-cı illərində Dövlət Müstəqilliyi haqqında konstitusiya aktını qəbul edən Azərbaycan suveren bir ölkə kimi Dünya Birliyinin üzvü olsa da, qarşıda hüquqi və demokratik dövlət quruculuğu kimi mühüm bir vəzifə dayanırdı. Müstəqilliyi şərtləndirən başlıca amillərdən biri dövlət təsisatlarının yaradılması və bu sahədə olan boşluqların aradan qaldırılması idi.Demokratik cəmiyyət quruculuğu xətti tutan ölkəmizin ilk növbədə mükəmməl qanunlar toplusuna ehtiyacı var idi. Köhnə sovet qanunları artıq müasir dəyərlərə cavab vermirdi. Demokratik islahatlar yeni konstitusiyanın tezliklə qəbul olunmasını tələb edirdi. 1994-cü ilin axırları 1995-ci ilin əvvəllərində Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının yaradılması ilə bağlı məsələ gündəmə gəldi. Prezident Heydər Əliyevin sədrliyi ilə xüsusi komissiyası təşkil edildi. Mütəxəssislərdən ibarət işçi qrupu layihənin ilkin mətnini hazırlamağa başladı .Konstitusiya komissiyasının sədri Prezident Heydər Əliyevin rəhbərliyi ilə keçən komissiyanın ilk iclasında layihədə ümumbəşəri dəyərlərin ,xalqın tarixi keçmişinin və son illərin təcrübəsinin ciddi nəzərə alınması bir vəzifə olaraq qarşıya qoyuldu. Xarici dövlətlərin ölkəmizdəki səfirlərinin iştirakı ilə keçən həmin iclasda Prezident Heydər Əliyev yaranacaq yeni konstitusiyanın əsas prinsiplərinin necə olacağını bəyan etdi. Birmənalı şəkildə demək olar ki , layihənin müəllifi ümummilli lider Heydər Əliyevin özü idi. Hər bir fəsil və maddənin yazılmasına qədər gərgin əmək sərf edən ulu öndərin müəllifi olduğu bu layihə 1995-ci ilin oktyabrın 15- də ümumxalq müzakirəsi üçün mətbuatda dərc olundu. Cəmiyyətin demək olar ki , bütün təbəqələri müzakirələrə cəlb edildi. Təkliflər nəzərə alınmaqla layihənin yekun variantı 1995-ci ilin noyabrın 12- də referendum yolu ilə qəbul edildi.

Azərbaycanın ilk konstitusiyası dövlət hakimiyyətinin hakimiyyətlərin bölgüsü prinsipi əsasında təşkil olunduğunu müəyyən etdi .Təkcə bir faktı demək kifayətdir ki , Konstitusiyanın 158 maddəsindən 57-sində və üç fəsildən birində insan hüquq və azadlıqları təsbit edilirdi ki , bu da gənc müstəqil Azərbaycanın demokratik və hüquqi cəmiyyət qurmaq məramında olduğunu təsdiq edirdi. Bu, Heydər Əliyev konstitusiyası idi ki , onun əsas prinsipləri azad və müstəqil Azərbaycanın uzunmüddətli gələcəyinə hesablanmışdı. Bu Ali sənəd ölkədə həyata keçirilən hüquqi – demokratik islahatlar üçün möhkəm bir təməl idi.Müstəqil Azərbaycan Respublikasının əldə etdiyi bugünkü uğurlarının hüquqi başlanğıcında da məhz, ümummilli lider Heydər Əliyevin həyat verdiyi Azərbaycanın ilk konstitusiyası dayanır. İlk ali qanunu qəbul etməklə Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsini arzuladı, keçmiş, indiki və gələcək nəsillər qarşısında tarixi məsuliyyətini bəyan etdi. İlk Konstitusiyamız, eyni zamanda xalqımızın dünyəvi, milli – mənəvi prinsipləri rəhbər tutaraq seçdiyi gələcək yolun ifadəsi idi. Zaman keçdikcə Əsas Qanuna əlavə və dəyişikliklərin edilməsi ,onun müasir tələblərə uyğunlaşdırılması demokratik inkişaf yolunda olan bütün dövlətlər üçün səciyyəvi haldır. 2002-ci ildə Azərbaycan Konstitusiyasında dəyişikliklər edilməsinə yaranan ehtiyac da məhz bütün sahələrdə nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Həmin il ilk dəfə keçirilən Konstitusiya islahatlarından sonra respublikanın ictimai –siyasi həyatında fundamental dəyişikliklər– iqtisadi, siyasi, hüquqi islahatların dərinləşməsi, demokratikləşmə prosesinin sürətlənməsi və digər pozitiv yeniliklər Azərbaycan Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişiklikləri obyektiv tələbata çevirdi. 2009-cu il martın 18-də Əsas Qanundakı əlavə dəyişikliklərə münasibəti öyrənən ümumxalq səsverməsi prezident İlham Əliyevin demokratikləşmə və liberallaşmaya xidmət edən, insan hüquqlarının qorunmasında əlavə imkanlar açan siyasətinin xalq tərəfindən birmənalı şəkildə dəstəkləndiyini bir daha təsdiq etdi.

# Tədqiqatçı alim, peşəkar cərrah

**Ümumi cərrahiyyə kafedrasının professoru Məhəmməd Məhəmmədəli oğlu Kərimovun bu günlərdə 65 yaşı tamam olub.**

M.Kərimov 1955-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ardanış kəndində tanınmış ziyalı ailəsində dünyaya gəlib. 1973-cü ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutununun I Müalicə-profilaktika fakültəsinə daxil olub.1979-cu ildə institutu əla qiymət və Lenin təqaüdü ilə bitirərək bir illik internaturanı Bakı şəhər TTYX -da keçibdir. O, 1980-1983-cü illərdə təyinatla Sumqayıt şəhərində 1 saylı xəstəxanada həkim-cərrah işləyib. 1983-cü ildən əmək fəaliyyətini və təhsilini SSRİ Tibb Elmlər Akademiyasının A.V.Vişnevski adına Cərrahiyyə İnstitunda (Moskva şəhərində) kliniki ordinaturada davam etdirib. 1985- ci ildə kliniki ordinaturanı uğurla başa vurub və adıçəkilən İnstitutda müsabiqə yolu ilə aspiranturaya daxil olub. M.Kərimov 1988- ci ildə Sovetlər İttifaqında damar cərrahiyyəsinin banisi, dünyaca məşhur akademik A.V.Pokrovskinin rəhbərliyi altında "Aşağı ətrafların trofiki xoralarla fəsadlaşmış xroniki venoz çatışmazlığının idarəolunan abakterial mühitdə cərrahi müalicəsi" mövzusunda namizədlik dissertasiyasını vaxtından əvvəl müdafiə edərək Vətənə qayıdıb və sonrakı əmək fəaliyyətini Azərbaycan Tibb Universitetində davam etdirib.

1988- cu ildə Azərbaycan Tibb Universitetinin Ümumi Cərrahlıq kafedrasının assistenti,

1995- ci ildə həmin kafedranın dosenti seçilibdir. Tədris və həkimlik fəaliyyəti ilə yanaşı elmi işlərə böyük önəm verən M.Kərimov öz tədqiqatlarını ötən əsrin sonlarında Azərbaycan cərrahiyyəsində çox aktual sayılan qida borusu xərçənginin cərrahi müalicəsinə həsr edib. Qeyd edək ki, Azərbaycan cərrahiyyəsinin banisi akademik M.Topçubaşovdan sonra uzun müddət unudulan qida borusu cərrahiyyəsi sahəsinə M.Kərimov müəllimi professor Çərkəz Cəfərovla birlikdə sanki yeni bir nəfəs verdi. Ağır zəhmət tələb edən bu tədqiqatlar sonda onun 2005-ci ildə akademik M.Davudov və professor Ç.Cəfərovun elmi məsləhətçiliyi ilə "Qida borusu xərçənginin cərrahi müalicəsi və proqnoz amilləri" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil etdi (2003-cü ildə N.N.Bloxin adına Rusiya Onkoloji Elmi Mərkəzində, 2005-ci ildə isə Azərbaycan Onkoloji Elmi Mərkəzində).

2010 - cu ildə ATU-nun Ümumi Cərrahiyyə kafedrasının professor seçildi.

Professor M.Kərimov 2006-cı ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Baş cərrahı, sonra isə Səhiyyə Nazirliyinin Cərrahi profilli ixtisaslar üzrə Sertifikasiya və Attestasiya Komissiyalarının sədri təyin edilib. 2006-cı ildə ilk dəfə onun təşəbbüsü və Səhiyyə Nazirinin əmri ilə ilə yaradılan "Cərrahi xəstəliklərdən ölüm hallarının müzakirəsi komissiyası " na sədrlik edib.

Komissiya fəaliyyəti dövründə cərrahi xidmətin təkmilləşməsi və yaxşılaşması işinə özünün lazımi töhvələrini verə bilib.

Professor M.Kərimov ATU-nun Cərrahi ixtisaslar üzrə Dissertasiya Şurasının üzvü, Cərrahiyyə üzrə Aprobasiya Şurasının sədri, Milli Elmlər Akademiyasının Tibbi Şurasının, eləcə də bir çox başqa şura və komissiyaların üzvüdür.

Professor M.Kərimov hazırda yaradıcılığının fəal və məhsuldar dövrünü yaşayır. Aktiv cərrahi və elmi fəaliyyətlə məşğul olan, Azərbaycanda cərrahiyyənin bəzi sahələrinin (müasir flebologiya) əsasını qoyan, öz işində ən son yenilikləri tətbiq edən novator cərrahdır. Apardığı əməliyyatlar döş qəfəsi, qarın boşluğu üzvlərinin, eləcə də endokrin və damar sisteminin müxtəlif xəstəliklərini əhatə edir, öz müasirliyi və mürəkkəbliyi ilə seçilir.

Qeyd edək ki, ölkəmizdə varikoz xəstəliyinin bütün müasir müalicə üsullarının tətbiqi professor M.Kərimovun adı ilə bağlıdır. Belə ki, 2011 -ci ildə ilk dəfə Endovenoz Lazer Ablasiyası əməliyyatını, sonra isə ardıcıl olaraq radiotezlikli dalğalarla ablasiya və exoskleroterapiyanı da tətbiq edib.

Professor M.Kərimov 2019-cü ildə yeni bir uğura imza atıb. Belə ki, varikoz xəstəliyinin müalicəsində termoobliterasiya üsullarından sonra yaradılmış və bu gün dünyada ən son, az invaziv müalicə üsulu sayılan Non Termal-Non Tumessent (NT-NT) obliterasiyanı MDB məkanında ilk dəfə olaraq ölkəmizdə - ATU-nun Tədris Cərrahiyyə Klinikasında Türkiyədən dəvət olunmuş mütəxəssislərlə birlikdə uğurla işlədib və bu gün də geniş istifadə etməkdədir. Türkiyə istehsalı olan bu sistem ("Venaclose") dünyada geniş yayılmış "Vena-Seal" sisteminə (ABŞ-İngiltərə) ciddi alternativ olaraq bir çox üstünlüklərə malikdir və ona görə də hazırda geniş yayılmaqda və dünyanın 60-dan artıq ölkəsində tətbiq edilməkdədir.

Damar sisteminin (arterial, venoz və limfatik) bütün xəstəliklərinin müasir müalicə üsulları onun gündəlik praktik fəaliyyətinin əsasını təşkil edir.

Professor M.Kərimovun ölkəmizdə ilk dəfə icra etdiyi əməliyyatlar sırasına həmçinin əhali arasında geniş yayılmış babasil xəstəliyinin ən son radikal və azinvaziv müalicə üsulu sayılan Transanal Hemorroidal Dezarterizasiya (THD) metodunun uğurlu tətbiqi və onun bu gün artıq bir rutin müalicə kimi praktikada geniş şəkildə istifadəsi aiddir.

Müasir cərrahiyyənin müxtəlif sahələrində fəaliyyət göstərən professor M.Kərimov nəinki aktiv cərrah, həmçinin tədqiqatçı alim və bir pedoqoq kimi bu gün də öz işini uğurla davam etdirir

Professor M.Kərimov 150-yə yaxın elmi əsərin, 2 dərsliyin müəllifidir, əsərləri dünyanın bir çox sanballı beynəlxalq jurnallarında



dərc edilib. Rəhbərliyi altında aparılan 3 elmi-tədqiqat işi başa çatmaq üzrədir.

Professor M.Kərimov Ümumdünya Damar Cərrahları Assosasiyası, Dünya Fleboloji Forumu, Avropa Cərrahlar Cəmiyyəti, Avropa Damar Cərrahları Assosiasiyası və bu kimi bir çox mötəbər beynəlxalq cəmiyyətlərin üzvüdür. Azərbaycan cərrahiyyəsini dünyanın müxtəlif ölkələrində - ABŞ, Avstraliya, Almaniya, Fransa , İtaliya, İngiltərə, Hollandiya, İsrail, Avstriya, İsveçrə, Türkiyə, Çexiya, Sloveniya, Şotlandiya, Rusiya və bir sıra ölkələlərdə müxtəlif konqres və simpoziumlarda ləyaqətlə təmsil edib.

Professor M.Kərimovu 65 illik yubileyi münasibəti ilə kafedramızın kollektivi adından ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı, həyatının belə məhsuldar dövründə, həkimlik və elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq.

**Elçin AĞAYEV,**
*Ümumi cərrahiyyə kafedrasının müdiri, professor*

# Kitabxanadan kitab götürmək istəyən tələbələrin nəzərinə

**ATU-nun Əsaslı kitabxanasından kitab götürmək istəyən tələbələr 04 noyabr 2020-ci il tarixdən etibarən onlayn formada müraciət edə bilərlər.**



Link vasitəsilə qeydiyyatdan keçdikdən sonra sizə göndərilən maildə göstərilən tarix və saatda kitabxanaya yaxınlaşaraq kitabları götürə bilərsiz. Kitabxanaya gəldikdə 1-ci kurs tələbələri özü ilə şəxsiyyət vəsiqəsi, 1 ədəd şəkil (3x4), e-mailə göndərilən mesajın surəti; 2 və yuxarı kurs tələbələri isə tələbə bileti və e-mailə göndərilən mesajın surətini gətirməlidirlər. Link aşağıda qeyd olunub.

Xahiş edirik, sosial məsafəyə və karantin tələblərinə riayət etmək üçün göstərilən tarix və saatda kitabxanaya gələsəniz, vaxtdan kənar olduqda qəbul edilməyəcəklər.

https://docs.google.com/.../1FAIpQLSdYtSBYEgf.../viewform...

# Diqqət!

## Virtual "Sağlamlıq üzrə dünya innovasiya sammiti"ndə iştirak etmək istəyən əməkdaşların nəzərinə



15-19 noyabr 2020-ci tarixlərində Qətər Təhsil, Elm və Cəmiyyət İnkişafı Fondunun dəstəyi ilə "One World, Our Health" ("Bütün dünya və sağlamlığımız") başlığı altında virtual "Sağlamlıq üzrə dünya innovasiya sammiti" keçiriləcək.

Sammit tibbin müxtəlif sahələrini özündə əhatə edir və dünyada çox nüfuzlu ekspertlərin çıxışları planlaşdırılır.

Qeydiyyat və iştirak pulsuzdur.

Ətraflı məlumat və qeydiyyat üçün https://2020.wish.org.qa/ linkinə daxil ola bilərsiniz.

**Hörmətlə,**
**Azərbaycan Tibb Universiteti**
**Beynəlxalq Əlaqələr şöbəsi**

# XOCALININ «QARAĞAC BULAĞI»

**◆ Biri vardı, biri yoxdu... Bir Xocalı vardı, bir də onun əzabkeş, cəfakeş, zəhmətkeş və vətənsevər, yurdsevər sakinləri...**

Azərbaycanın ən qədim insan məskənlərindən, yurd yerlərindən olan, tarixi maddi - mədəniyyət nümunələrini özündə əks etdirən, çar Rusiyasının apardığı 1895-ci il siyahıyaalınmasına görə 46 kişi bəyi və 44 qadın bəyinə malik olan Xocalıda – Allahverdi bəyin «Tut Bağı»nın yaxınlığında qaynar gözlü, ayna üzlü, şirin sözlü bir bulaq da vardı. Bulağın büllur kimi saf damlaları gözlərə məlhəm, canlara dərman idi. Onun suyu bədəndəki zərərli və zəhərli maddələri təmizləyir, orqanizmdəki xolesterini damarların divarlarının kirəcləşməsinə-aterosklerozuna yox, orqanların fəaliyyətinin həyat üçün vacib məsələlərinə yönəldərdi. O inci sulardan içənlər də onun damlaları kimi təmiz və saf olurdular. İnsanlar bulağın qaynar gözündən su içib bir-birlərinə «Sucan ömrün olsun!» - deyərdilər. «Qarağac Bulağı» qoymuşdular bu bulağın adını dədə-babalar. Bulaq hər tərəfdən ətrafa oksigen hopmuş ətir çiləyən irigövdəli, sərin kölgəli, yaşılyarpaqlı, başı göylərə millənən qol-budaqlı qarağaclarla, böyürtkən və moruq kolları ilə, bir-birinə sarmaşmış qızlar boxçası gülləri ilə əhatə olunmuşdu. Bu ecazkar ağacların zümrüddonlu yarpaqları, göylərə ucalan budaqları, nəhəng gövdələri gündüzlər gün işığında, gecələr ay işığında bulaqda bərq vuraraq sığallanar, xəfif mehdən xoşallanaraq həzin xışıltı ilə pıçıldaşardılar. Bu pıçıltıların sevgisindən vəcdə gələrək qol götürüb süzən budaqların ahəngdar ritmik hərəkətləri möcüzəli məğrur düzümü ilə seçilən, əl-ələ verib «Yallı» gedən el birliyinin təcəssümünü xatırladardı insanlara. Bəlkə də bu ağaclara görə belə qoymuşdular bulağın adını. Allahverdi bəyin «Tut Bağında» məskən salmış sülh göyərçinləri də, cəh-cəh vuran bülbüllər də, şanapipiklər, torağaylar və cikkildəşən sərçələr də, böyürtkənli, moruqlu, çiyələkli yarpaqların, şibyə budaqları arasından hürkəkliklə boylanan əliklər, ceyran-cüyürlər, kəkliklər, turaclar da, şahə qalxan qızıl quşlar, şahinlər, qayalarda qıy vuran qartallar da, o bulağın dövrəsində fırlanar, onun suyu ilə böyüyüb boy atar, pərvazlanaraq dünyaya xeyirxahlıq, bərəkət, xoşbəxtlik toxumu səpərdilər...

Hər ilin mart ayında boynu bükük bənövşələr kolların dibindən boylananda, Novruz gülünün ətri yamaclara yayılanda Novruz Bayramını Qarağac Bulağının yanında bayram edərdilər Xocalılar. Axır çərşənbədə gecəni Qarağac Bulağının yanında keçirər, Tut Bağındakı çəmənliklərdə qurduqları çadırlarda çillə çıxarar, baharın xoşqədəmli gəlişini toy-büsatla qarşılayardılar xocalılar. Tiyanlarda qaynadılıb çətənə üzərində süzülərək dəmə qoyulan Bayram aşının ətri Baharın ilk müjdəsinə çevrilərdi. Hamı bir-birini təbrik edib «Novruz Bayramın mübarək!» deyərdi. Oğlanlar at belində oyunlar göstərər, qızlar yumurta boyayıb piyalələrdəki suya iynə salar, bəxtlərini sınayardılar. Səhər tezdən hamı böyürtkən kolunun tağ kimi əyilmiş budağının altından keçər, Qarağac Bulağının buz kimi suyunda əl-üzlərini yuyub arxın üstündən hoppanar, «Ağırlığım burda qalsın!» - deyər, təzə ildə təzələnər, təravətlənərdilər.

Ancaq el arasında deyirdilər ki, «Murdarlıq götürmür təmiz qəlbli insanlar kimi Qarağac Bulağı». Söyləyirdilər ki, XIX əsrin əvvəllərində - 1813 və 1828-ci illərdə «bağlanan» «Gülüstan» və «Türkmənçay» müqavilələrindən sonra Azərbaycana Qriboyedovun müşayiəti ilə köçürülənlərlə birlikdə donuz köçü də geniş ayaq açmışdı və bir gün bu murdar donuzlar bulağın suyundan içib doyduqdan sonra bulağın gözündə ağnayıblar. Dözməyib bulaq qəfil peyda olan bu yadelli murdarlığa, götürməyib bu haramlığı - quruyub suyu, batıb gözü bulağın. Söyləyirlər ki, xeyirxah insanlarla birlikdə göyərçinlər, bülbüllər, ceyran-cüyürlər, kəkilli kəkliklər bulağın yurdunu məhəbbət dolu göz yaşlarıyla yuyub təmizləyiblər. «Allahın məsəlli əla Məhəmmədin və əla Məhəmməd» - deyib salavat çeviriblər hər gün. Təmiz məhəbbətdən, səmimi sevgidən təmizlənərək durulaşan bulaq yenidən qaynamağa başlayıb, yenidən insanlara, cəh-cəh vuran bülbüllərə, sülh göyərçinlərinə, ceyran-cüyürlərə, kəklikotu ətirli kəkilli kəkliklərə xoşbəxtlik bəxş edib, yenidən həyata gəlib, yenidən aləmə ədalət toxumu, sülh toxumu səpilməsinin mənbəyinə çevrilib «Qarağac Bulağı».

Deyirlər ki, Xocalı adlı məkan da özünün büllur gözlü bulağına bənzəyir. O da götürə bilmədi erməni vandalları tərəfindən törədilən soyqırımı kimi murdarlıq vəhşiliklərini. XIX əsrə qədər xoşbəxt və firavan bir həyat sürüb Xocalı. 1828-ci ildə qonşuluqdakı iri dövlətlərin Azərbaycanı öz aralarında parçalamalarından sonra ermənilərin İrandan, digər regionlardan Qarabağa doğru başlanan kütləvi köçü pozub dincliyini, rahatlığını, ərşə çəkib yuxusunu Xocalının. Son yüz ildə 3 dəfə yandırılıb lənətə gəlmiş gəlmə erməni daşnakları tərəfindən Xocalı. Əvvəlki vaxtlarda yol tapıb paklığa çıxara bilmişdilər xocalılar «Qarağac Bulağı»nı. «Su aydınlıqdır» - deyirlər. O da aydınlığa çıxarmışdı Xocalını. 1992-ci ilin fevral ayının qarlı-çovğunlu 25-26-sı tarixlərindəki son erməni işğalından sonra daha ağır, daha dəhşətli soyqırıma məruz qalsalar da, yenə də yollar axtarır dəhşətli qırğından təsadüfən sağ çıxan Xocalılar. Xocalılar bilir ki, hər gün, hər an yeni murdarlıqlarla üzləşir əsirlikdə, erməni tapdağı altında inləyən, sızlayan «Qarağac Bulağı». İndi «Qarağac Bulağı»na gedən ot basmış, itmiş yollarını axtarırlar Xocalılar. Bu yolları tapmaq üçün mükəmməl ordu ilə birlikdə «Qarağac Bulağı»nı böyük ürəklə sevə bilən gənclərin hərarətli, sevgi dolu məhəbbətli ürəkləri lazımdı. Məhəbbətli gənc ürəklər tapa bilər «Qarağac Bulağı»nın yollarını. Müqəddəs duyğular xilas edə bilər murdarlıqdan «Qarağac Bulağı»nı. Xocalının, Qarabağın, Şuşanın, Xankəndinin, Laçının, Kəlbəcərin, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın, Zəngəzurun, Göyçənin, Vedinin, Dərələyəzin, İrəvanın, Turşsuyun, İstisuyun, İsa Bulağının da tilsimi o bulaqdadır. «Qarağac Bulağı»nı xilas edən dahi xilas edəcək murdarlardan Qarabağı da, Xocalını da, bütün Qərbi Azərbaycan torpaqlarını da. Yol gəlir coşqun məhəbbətli, namuslu gənclərin qeyrət dəstələri. Bu məhəbbətdən coşub daşacaq təlatümlü suyu «Qarağac Bulağı»nın, yuyub təmizləyəcək yenidən Qarabağı donuz məkrlilərdən. Qovuşacaq Qarqara, İlisə, Kürə, Araza, Qudyalçaya, Həkəriyə töküləcək yenidən Xəzərə sonucda «Qarağac Bulağı».



...Saf duyğularla yaşayan təmizqəlbli, xoşniyyətli təvazökar bəşər övladları da, bütün sülhsevər insanlar da mənim Xocalımda olan büllur damlalı, həzin laylalı «Qarağac Bulağı» kimidirlər. Mayası paklıq xəmirində yoğrulmuş belə səmimi, etibarlı insanlar da onlara qarşı törədilən murdarlıqları götürmürlər. Onların da qəlbi o qədər zərifdir ki, onlara qarşı törədilən istənilən tipli murdarlıqları həzm edə, ona tab gətirə bilmirlər. Gözümüz önündə saralıb solur, göyün ənginliklərinə çəkilirlər. Orada mələklərə qovuşub təmizlik rəmzinə çevrilirlər. . .Yaxşı ki, dünyanın heç bir guşəsində murdarlıq götürmür təmiz qəlbli, sədaqətli insanlar. Nə qapalı bir ailə çərçivəsində, nə də geniş ictimaiyyət qarşısında! Götürmürlər murdarlıq. Gedirlər... Gedirlər əbədiliyə hay-küysüz, səssiz-səmirsiz...

Mənim Xocalımın «Qarağac Bulağı» da indi yəqin ki, erməni murdarlığını, donuz ağnamalarını götürməyərək yenidən səmtini dəyişib, erməni rəzalətinə xidmət etməyərək, göyün ənginliklərinə çəkilib, gözləyir yolumuzu bizim. Bizim «Qarağac Bulağı»nın gözünü donuzlardan təmizləməyimizi, əsarətdən, işğaldan, rəzalətdən azad etməyimizi gözləyir.

Gözlə, mənim saf qəlbli «Qarağac Bulağım». Biz səni də, Şuşamızın İsa Bulağını da, Turşsuyunu da, Xan qızı Natəvanın ecazkar bulağını da, Kəlbəcərimizin İstisuyunu, Gəlin Qayasını da, Qırxqızımızın Sarı Bulağını da, Laçınımızın «Yaxşısını və Sarı Aşığını» da, Füzulimizin Azıx Mağarasını da, Ağdamımızın qədim tarixə malik «Qarağacı qəbiristanlığını» da, Xankəndinin yaxınlığındakı «Xan Bağı»nı da, Pənah Xanın inşa etdirdiyi möhtəşəm Şuşa Qalası və Əsgəran Qalasını da mütləq azad edəcəyik. Sənin uğrunda ədalətsizliyə, işğala qarşı mübarizə aparan Azərbaycan sərkərdələri həmişə ayıq-sayıqdırlar. Sən yenə də halallığa qovuşacaq, kükrəyib-daşacaqsan. Təmizliyi görüb, insanlara xoşbəxtlik bəxş edəcəksən. Sən mütləq Azərbaycanın halallığının müjdəsini duyacaq, görəcək, eşidəcəksən, sən azad olacaqsan, Qarağac Bulağı.

Bunu, bu büllur saflığı mən görməsəm də Azərbaycanın övladları olan nəvələrimiz, nəticələrimiz görəcək. Əminəm və inanıram ki, bu görüşdən mütləq mənə də pay düşəcək, sənin damlalarınla mənim də ruhuma müjdə gələcək, mehriban Qarağac Bulağı. Bu mütləq baş tutacaq. Çünki həmişə sonda xeyir-şərə, ədalət-ədalətsizliyə, işıq-qaranlığa, düzlük-əyriliyə, həqiqət-yalana, səmimilik-xəbisliyə, qeyrətlik-qeyrətsizliyə, dürüstlük-nadürüstlüyə, mərdlik-namərdliyə qalib gəlib. Bu, indi də belədir. Gələcəkdə də belə olacaqdır. Çünki yaxşı insanlar, hamıda bir yaxşılıq axtarıb tapan insanlar həmişə olub, var və olacaqdır.

Qürurlu qeyrətli, vüqarlı «Qarağac Bulağı»! Xilaskar Azərbaycan ordusu Allahın köməyi ilə tezliklə səni, işğal altında əzilən Qarabağı, Qərbi, Şərqi, Şimali, Cənubi Azərbaycanın yadellilər tərəfindən zəbt edilən bütün qütblərini zülmətlərdən nura, aydınlığa, işığa çıxaracaqdır.

**P.S.** ***İllər öncə xəyal etdiklərimiz indi gerçək oldu. Ali Baş Komandan və Müzəffər Azərbaycan Ordusu arzularımızı reallaşdırdı. İşğal olunmuş torpaqlarımız azaddır. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!***

**Mübariz ALLAHVERDİYEV,**
*İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, Xocalı sakini*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**

- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer

**Kafedraların dosentləri:**

- Allerqologiya və immunologiya kafedrası - 1 yer (0,25 vahid)
- Allerqologiya və immunologiya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- Allerqologiya və immunologiya kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 2 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,75 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Ümumi cərrahlıq kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın baş müəllimi:**

- Patoloji fiziologiya kafedrası - 2 yer

**Elmi Tədqiqat Mərkəzi:**

- Patoloji proseslərin modelləşdirilməsi və eksperimental terapiya şöbəsi (böyük elmi işçi) - 1 yer (0,5 vahid)
- Eksperimental cərrahiyyə şöbəsi (kiçik elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08.**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

# İgid Əsgər

(nəvəm Fidanın istəyi ilə)




Halal bir millətin nümayəndəsi,
Qürurlu oğlusan Azərbaycanın.
Sinənlə sipər çəkib bizi qoruyub,
Düşmən həmləsinə qalib gəlirsən.

Hiyləgər, şərəfsiz, mənfur düşməni
Yerində susdurub məhv eyləyərək,
Qanınla, canınla zəfər çalırsan,
Azəri yurdunun igid oğlusan.

Sənə alqış olsun, ey igid əsgər,
Səninlə fəxr edir vətəndaşların.
Körpədən qocaya odlar yurdunun
Hər bir vətəndaşı sənə inanır.

Daim dua edib ulu Tanrıya,
Deyir zəfər çalsın mənim bu ordum!
Girəndə döyüşə bir aslan kimi,
Yağılar gözündə milçəyə dönür.

Nə qədər hiyləgər olsa da onlar,
Yanaraq iblis tək oda qalanır.
Ağıllı komandan verib əmrini,
Daim zəfərlərə səsləyir sizi.

Bir əldə birləşən bir yumruq kimi,
Həmişə qalibsən, ey igid əsgər!
Daim var olsun, yaşasın Vətən,
Həmişə zəfərlər qazanasan sən!

**RƏFAİL,**
*Mühasibatlıq şöbəsinin əməkdaşı*

# Qarabağ çağırır bizi!



Ey insanlar, eşidin siz,
Qarabağ çağırır bizi!
Vətən səsi, vətən hayı,
Qarabağ çağırır bizi!

Babək, Nəbi, Həcər gəlsin,
Qoç igidlər, ərlər gəlsin.
Can fəda edənlər gəlsin,
Qarabağ çağırır bizi!

Gözü yolda neçə vaxtdır,
Laçın, Şuşa, Kəlbəcərin.
Meydanıdır igidlərin,
Qarabağ çağırır bizi!

Qan yaddaşına yazılıb
Xocalının faciəsi.
Düşündürür hər bir kəsi,
Qarabağ çağırır bizi!

"Qarabağ Azərbaycandır !",-
Deyir Ali Baş Komandan.
Səsinə səs verir xalqım,
Qarabağ çağırır bizi!

Ordumuzdur xilaskarı,
Doğma yurdum Qarabağın.
Səfərbər olub millətim,
Qarabağ çağırır bizi !

Qarabağda addımlayır
Azərbaycan əsgəri.
Dilində səslənir hər an,
"Qarabağ çağırır bizi!"

Atıb silahını qaçır,
Düşmənimin əsgərləri.
O qorxur bax bu şüardan:
"Qarabağ çağırır bizi !"

Tarix yazan mənim ordum,
Hər döyüşdə öndə durdun.
Düşmənə zərbələr vurdun,
Qarabağ çağırır bizi !

Xalqımızın inam yeri,
Ali Baş Komandanımız!
O səsləyir qələbəyə,
Qarabağ çağırır bizi !

Qoy ordumuz zəfər çalsın,
Qələbə bayrağın sancsın.
Oğul gərək qisas alsın,
Qarabağ çağırır bizi !

Yumruq təki biz bir olaq,
Ucaldaq haqqın səsini,
Qovaq o mənfur düşməni,
Qarabağ çağırır bizi !

**Mir Zamin MUXTAROV,**
*Yoluxucu xəstəliklər kafedrasının əməkdaşı*

### Etibarsız sayılır

Stomatologiya fakültəsinin IV kurs, 717A6 qrup tələbəsi Maqsudov Hacıməhəmməd Kazım oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

I müalicə-profilaktika fakültəsinin IV kurs, 117İ4 qrup tələbəsi Muhammed Al Mayyah Hameed oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

Bioloji kimya, Tibbi və bioloji fizika kafedralarının əməkdaşları Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizovaya oğlu

**İbrahimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200